# Orta əsr Azərbaycan memarlıq irsinin salnaməsi



**Memar Əcəmi Naxçıvani, Bədrəddin Təbrizi, Memar Həsən ibn Firuz Marağayi, Qasım bəy Hacıbababəyov, Kərbəlayı Səfixan Qarabaği, Məhəmməd Haşim əl-Bakuvi, Zivər bəy Əhmədbəyov, Mikayıl Hüseynov, Sadıq Dadaşov, Davud Axundov, Əbdülvahab Salamzadə, Tələt Xanlarov və bir çox digər memarların adları Azərbaycanın mədəniyyət və incəsənət tarixinə həmişəlik həkk olunub. Təbii ki, olduqca zəngin memarlıq irsi elmi tədqiqatlarda da öz əksini tapıb. Azərbaycanda müasir memarlıq elminin əsası akademiklər Mikayıl Hüseynov, Əbdülvahab Salamzadə və sənətşünaslıq doktoru Leonid Bretanitskinin həmmüəllifliyi ilə 1963-cü ildə işıq üzü görən "Azərbaycan memarlıq tarixi" adlı fundamental əsərlə qoyulub. Sonralar memarlıq nəzəriyyəsi akademik Şamil Fətullayev-Fiqarovun "XIX əsr - XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq" və "Bakı memarlıq ensiklopediyası" adlı fundamental əsərləri ilə zənginləşib.**

Memarlıq tarixi və nəzəriyyəsinə aid elmi tədqiqatlar daha sonralar da aparılıb. Hazırda da bu sahəyə aid sanballı əsərlər ərsəyə gəlir. Məsələn, 2021-ci ildə Azərbaycan və rus dillərində, 2023-cü ilin sonlarında isə ingilis dilində AMEA Memarlıq və İncəsənət İnstitutunun Memarlıq tarixi və nəzəriyyəsi şöbəsinin müdiri, memarlıq doktoru, professor Rayihə Əmənzadənin "Gəncə. Memarlıq salnaməsi. XII-XIX əsrlər" adlı monoqrafiyası nəşr edilib. Kitabda dövlətçilik tarixinin mərhələləri və onlarla paralel formalaşan Gəncənin siması haqqında bəhs olunur. Monoqrafiyanın ingilis dilində işıq üzü görməsi isə Gəncənin timsalında Azərbaycanın tarixi-mədəni irsinin beynəlxalq aləmdə təbliğinə sanballı töhfədir.

Bu günlərdə professor Rayihə Əmənzadənin "Azərbaycan memarlığında monumental tikililərin kompozisiya qanunauyğunluqları. XI-XVII əsrlər" adlı fundamental monoqrafiyası işıq üzü görüb. Uzunillik gərgin əməyin nəticəsini özündə cəmləndirən və ilk dəfə 2007-ci ildə rus dilində nəşr olunan bu elmi əsərdə islamaqədərki memarlıq tikililəri araşdırılır, Orta əsr Azərbaycan memarlığının inkişafı haqqında ətraflı danışılır.

Hər bir xalqın memarlıq irsinin dünya sivilizasiyasının bədii yaddaşının tərkib hissəsi olduğunu qeyd edən alim Azərbaycan memarlığının da bu bədii yaddaşda önəmli yer tutduğunu, XI yüzildən başlayaraq bədii mədəniyyətimizin çiçəkləndiyini vurğulayır. Bu ərazilərdə ta qədimdən insanların məskunlaşdığına işarə edərək, müəllif yazır: "Yer üzündə insanın ilk addım atdığının minilliklərlə ölçüldüyü Azıx kimi yerlər çox azdır. Bu torpaqlarda yaşamış Qobustan insanı, eləcə də Kəlbəcər, Gəmiqaya insanı həm şair, həm də rəssam olub, öz bədii təxəyyülünün gücü ilə sarp qayalarda bənzərsiz rəsmlər yaratmışdır". Professor Rayihə Əmənzadə XI-XVII əsr monumental memarlığın inkişaf mərhələlərini nəzərdən keçirir, monumental tikililərin genetik köklərini araşdırır və tipoloji təsnifatını təqdim edir.

Tədqiqata dini tikililər (məscidlər, mədrəsələr, minarələr) və dini komplekslər (cümə məscidləri, xanəgahlar, imamzadələr), memorial tikililər (məqbərələr, memorial komplekslər), mülki tikililər (saraylar, rəsədxanalar, müalicə-sağlamlıq tikililəri, kitabxanalar, hamamlar, mühəndis qurğuları) və ticarət tikililəri (bazarlar, karvansaralar) cəlb olunub. Memarlıq tikililərinin ümumi qrupunun ən parlaq və dolğun örnəkləri qismində şah əsərlər - Naxçıvanda Möminə xatun türbəsi, Sultaniyyədə Olcaytu xan məqbərəsi, Təbrizdə Göy məscid, Ərdəbildə dini kompleks, Bakıda Şirvanşahlar saray ansamblı çıxış edir. Həmçinin monoqrafiyada Quzey və Güney Azərbaycanda yerləşən çoxsaylı tikililər, o cümlədən Bakı, Gəncə, Ordubad, Dərbənd və digər şəhərlərdə ucaldılan Cümə məscidləri, Təbrizdə Əlişah məscidi, Naxçıvan, Gəncə, Bərdədə İmamzadə kompleksləri, Əlincəçay, Pir Hüseyn, Şeyx Şihabəddin Əhəri xanəgahları, Naxçıxanda Yusif ibn Küseyir türbəsi, Qobustanda Diri Baba türbəsi, Füzulidə Şeyx Baba türbəsi, Sultaniyyədə Çələbioğlu məqbərəsi, Marağada Qırmızı günbəz, Qafariyyə günbəzi və Rəsədxana, Ərdəbildə Şeyx Əminəddin Cəbrayıl türbəsi, Qəzvində Səadətabad sarayı, Füzulidə Qarğabazar karvansarası,Təbrizdə bazar və Şibli karvansarası, hamamlar, buzxanalar, körpülər haqqında söhbət açılır.

Bundan əlavə, tədqiqat işində konstruktiv sistemlər, tikililərin tektonikası, habelə memarlıq kompozisiyasını harmonikləşdirmə vasitələri (ritm və metr, simmetriya və asimmetriya, miqyaslılıq, dekorativ tərtibat və s.) haqqında ətraflı danışılır.

Mədəniyyət ümumbəşəridir! Bunu memarlığın inkişafında da görmək olur. Monoqrafiyada qeyd edildiyi kimi, azərbaycanlı memarların yaratdıqları parlaq nümunələr təkcə ölkəmizdə deyil, həmçinin Şərqin bir çox yerlərində, məsələn, Herat, Səmərqənd, Konya, İsfahan, İstanbul, Bursa və s. şəhərlərdə ucalır. Eyni zamanda Azərbaycanda da monumental tikililərin ucaldılmasına digər ölkələrin inşaat nailiyyətləri təsir göstərib, respublikamızda əcnəbi memarların bilavasitə iştirakı ilə inşa edilən tikililər yetərincədir. Bu memarlıq abidələri mədəniyyətlərin qarşılıqlı əlaqələri və qarşılıqlı təsirinin bariz nümunələridir. Təsadüfi deyil ki, Vətənimizin memarlıq irsini tədqiq edən professor Rayihə Əmənzadə vurğulayır: "Azərbaycan xalqının müstəsna dərəcədə zəngin bədii nailiyyətlərini, o cümlədən səviyyəli inşaat mədəniyyətini nümayiş etdirən tarixi-memarlıq salnaməsi rəngarəng və heyrətamizdir. Xalqımızın memarlıq irsi barədə danışarkən ən birinci nələrin anlaşıldığı sual edilir - bu, milli mahiyyətin dərki və təzahürünün müəyyən mənasında salnaməsi olan, əsl monumental qüvvəyə və parlaq bədii obrazlı ifadəliliyə nail olunmuş möhtəşəm tikililərdir".

Beləliklə, professor Rayihə Əmənzadənin "Azərbaycan memarlığında monumental tikililərin kompozisiya qanunauyğunluqları. XI-XVII əsrlər" adlı nəfis tərtibatı və memarlıq irsimizin rəngarəng palitrasını əks etdirən çoxsaylı illüstrasiyalar ilə zəngin fundamental monoqrafiyası Elmlər Akademiyasının və AMEA Memarlıq və İncəsənət İnstitutunun 80 illik yubileylərinə sanballı töhfədir. Onu da demək yerinə düşər ki, kitab 11 Fevral - "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü ərəfəsində işıq üzü görüb. Cari ildə bu əlamətdar gün artıq 10-cu dəfədir ki, qeyd olunur. Azərbaycan elminin inkişafında qadınların xidmətləri böyükdür. Haqqında bəhs etdiyimiz fundamental monoqrafiya bunun növbəti bariz nümunəsidir.

**Nəzmin CƏFƏROVA**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**